QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 075 (5547) 19 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Vətənə, xalqa və dövlətə sədaqət andı!

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*



Səh 2

10

"Kaspi" Təhsil Şirkəti və "Gənc istedadlar" liseyi şagirdlərinin rəsm əsərlərindən ibarət sərgi açılıb



10

Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibdə ilk iclası keçirilib



14

Söyüş qrupu tərbiyəsizlik və əqli çatışmazlıqlarını nümayiş etdirir



# Vətənə, xalqa və dövlətə sədaqət andı!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər. Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar. Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.***



Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edib:

- Hörmətli xanımlar və cənablar.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir. Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Azərbaycan Respublikasının dövlət himni səsləndi. Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi: - Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü.

### "Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi. Prezident İlham Əliyev nitqində diqqətə çatdırıb ki, Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verib:

"Hörmətli xanımlar və cənablar.

İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir.

**Ardı Səh. 3**

# Vətənə, xalqa və dövlətə sədaqət andı!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*







**Əvvəli-Səh-2**

Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur. Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir.

Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə getmişdir, Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir.

Deyə bilərəm ki, son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və prezident seçkiləri kampaniyası bunu bir daha göstərir. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm."

**Ardı Səh. 4**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

19 aprel 2018-ci il

# Vətənə, xalqa və dövlətə sədaqət andı!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*

Əvvəli-Səh-3

### "Anti-milli qruplaşmanın yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır"

Dövlət başçısı qeyd edib ki, antimilli qruplaşmalar onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur:

"Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır."

### "Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır"

Prezident qeyd edib ki, Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib:

"Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur.

Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir. Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bildik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviyyədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır.






Ardı Səh. 5

# Vətənə, xalqa və dövlətə sədaqət andı!

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib*

Əvvəli-Səh-4

Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir.

Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır."

### "Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir"

Dövlət başçısı qeyd edib ki, ölkəmiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilib, Ermənistanın işğalçı siyasəti ifşa edilib:

"Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma "Dağlıq Qarabağ"ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma "referendum"u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir.

Bu gün Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.




Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir.

Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır."

### "Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb"

Dövlət başçısı diqqətə çatdırıb ki, Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilib. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır:

"Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq.

Biz köçkünlərlə bağlı olan məsələləri də uğurla həll edirik. Yüzə yaxın qəsəbə salınıb, 280-290 min köçkün soydaşımız yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan sonra da onlara dəstək göstərəcəyik. Köçkünlərin məişət problemləri, onların məşğulluğu daim diqqət mərkəzindədir. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır.

Ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib. 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır.

Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o səviyyədə artıbdır. Mən bunu bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimizdə biz bu amili daim diqqətdə saxlayacağıq. Çünki bizdə mövcud olan müsbət demoqrafik dinamika tələb edir ki, iş yerlərinin yaradılması prosesi daim getsin. Əgər nəzərə alsaq ki, indi dünyada, o cümlədən Azərbaycanda yeni texnologiyalar tətbiq olunur və bu texnologiyalar bəzi hallarda insan əməyini aradan götürür, yeni texnoloji müəssisələrin yaradılması bizim planlarımızdadır. Biz yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmalıyıq. Bu illər ərzində Azərbaycan intellektual məhsulun ixracatçısına çevrilibdir. "ASAN xidmət" artıq başqa ölkələrdə tətbiq olunur, bizim təcrübəmiz öyrənilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab idi. Bu, sosial layihədir. Çünki bu layihə insanlara xidmət göstərir. On üç "ASAN xidmət" mərkəzimiz var. Bu ilin sonuna qədər onların sayı 15-ə, gələn ilin sonuna qədər isə 20-yə çatacaqdır. "ASAN xidmət" mərkəzlərində 20 milyondan çox müraciət qeydə alındı və bu qurumu bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu, bir daha bizim niyyətimizi, siyasətimizi göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk."

### "Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq"

Dövlət başçısı qeyd edib ki, ölkəmiz digər sahələrdə də böyük uğurlar qazanıb. 2004-cü ildə Azərbaycana xaricdən bir milyon qonaq gəlmişdirsə, bu il gələcək qonaqların sayı üç milyona çatacaq. Dövlət başçısı bildirib ki, biz ölkəmizi dünyada tanıtdıra bilmişik:

"Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, siyasi, humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etdi. Bununla paralel olaraq, xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, təhlükəsizlik, gözəl infrastruktur, şərait, tarixi abidələrimiz Azərbaycanı sürətlə inkişaf edən böyük turizm mərkəzinə çevirir. Əlbəttə, bu, ölkəmizə valyuta gətirir, bu, ölkəmizi daha da gücləndirir və bu sahədə minlərlə iş yeri yaradılır və yaradılacaqdır.

Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında böyük qələbələr qazanmışlar. Avropa Oyunlarında biz ikinci yerə layiq görüldük, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında birinci yerə nail olduq. Biz Rio Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq, biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Bir daha qayıdıram çıxışımın əvvəlinə, xalq-iqtidar birliyi bütün bu uğurları mümkün edir. Biz regional inkişafla çox ciddi məşğul olmuşuq. Üç regional inkişaf proqramı qəbul edilibdir. Üçüncüsü bu il başa çatır. Regionların siması dəyişilib, şəhərlər abadlaşıb, gözəlləşib. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakı şəhəri bizim qürur mənbəyimizdir.

Yəni, son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!"

X X X

Bununla da andiçmə mərasimi başa çatıb.

# Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad edib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ulu Öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.

Sonra Prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akade-





# Şəhidlərin xatirəsinə ehtiram





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edib.AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdi, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.***

Prezident İlham Əliyev və ailə üzvləri paytaxt Bakının mənzərəsini seyr etdilər. Sonra xatirə şəkli çəkdirildi.

# Rəsmi xronika

Prezident İlham Əliyevin ünvanına təbriklər gəlməkdə davam edir. Qətər Dövləti Əmirinin müavini Abdullah bin Həməd Al Tanidən Prezident İlham Əliyevə təbrik məktubu gəlib. Təbrikdə deyilir: "Zati-aliləri. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi və salamlarımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və uğurlarınızın davamlı olmasını, qardaş Azərbaycan xalqına isə daha sürətli inkişaf arzulayıram".

XXX

Türkiyə Həmkarlar İttifaqları Konfederasıyasının sədri Ergün Ataladan Prezident İlham Əliyevə təbrik məktubu gəlib: "Hörmətli cənab Prezident. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Seçkilərdə qazandığınız inamlı qələbə ölkənizin sosial və iqtisadi cəhətdən inkişafına və güclənməsinə yönəlmiş siyasi kursunuzun qardaş Azərbaycan xalqı tərəfindən dəstəkləndiyinin sübutudur.

Sizi Türkiyə Həmkarlar İttifaqları Konfederasıyası adından və şəxsən öz adımdan türk xalqları arasında birliyi gücləndirmək və türkdilli ölkələr arasındakı mövcud qardaşlıq münasibətlərini daha da inkişaf etdirmək üçün səylərinizi təqdirəlayiq hesab edirəm. Qardaş Azərbaycan xalqının rifahının daha da yaxşılaşması üçün həyata keçirdiyiniz siyasi kursu davam etdirəcəyinizə əminəm. Zati-aliləri, ali dövləti fəaliyyətinizdə Sizi bir daha təbrik edir, Sizə və bütün azərbaycanlı qardaşlarıma hörmət və salamlarımı çatdırıram".

XXX

İsveçrə Konfederasiyasının Prezidenti Alain Bersetdən: "Zati-aliləri. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur və Sizinlə bu ilin yanvar ayında Davosdakı görüşümüzü məmnunluq hissi ilə xatırlayıram.

İsveçrə Federal Şurası adından Sizə Azərbaycan dövlətinin və xalqının rifahı və davamlı firavanlığı istiqamətində bütün işlərinizdə uğurlar arzulayıram. İsveçrə ilə Azərbaycan arasında yaxşı və geniş əlaqələr mövcuddur. Mən səmimiyyətlə ümid edirəm ki, ölkələrimiz arasındakı yüksək səviyyəli münasibətlər Sizin Prezidentliyinizin yeni dönəmində də uğurla davam edəcək. Zati-aliləri, xahiş edirəm, ən dərin ehtiramlarımı qəbul edin".

XXX

Qətər Dövlətinin Əmiri Əlahəzrət şeyx Təmim bin Həməd Al Tanidən Prezident İlham Əliyevə təbrik məktubu gəlib. Təbrikdə deyilir: "Zati-aliləri. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və salamlarımı çatdırmaqdan böyük məmnunluq və şərəf duyuram. Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə əmin-amanlıq və uğurlar, qardaş Azərbaycan xalqına davamlı inkişaf, ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərin isə gələcək illərdə daha da möhkəmləndirilməsini arzulayıram".

XXX

Qətər Dövlətinin Baş naziri və daxili işlər naziri Abdullah bin Nasser bin Xəlifə Al Tanidən: "Zati-aliləri. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Qətər Dövlətinin hökuməti adından və şəxsən öz adımdan Sizə səmimi salamlarımızı və təbriklərimizi çatdırmaqdan şərəf hissi duyuram. Zati-aliləri, Sizə yeni-yeni uğurlar və əmin-amanlıq, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf arzulayırıq".

XXX

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qanidən Prezident İlham Əliyevə təbrik məktubu gəlib: "Zati-aliləri. Yenidən qardaş Azərbaycan dövlətinin Prezidenti seçilməyiniz münasibətilə Sizə Əfqanıstan xalqı adından ən xoş və ən səmimi təbriklərimi çatdırıram. Xalqınızın Sizi bu ali vəzifəyə yenidən layiq görməsi xidmətlərinizə verilən yüksək qiymət və gələcək planlarınıza inamın təzahürüdür. Zati-aliləri cənab Prezident, əminəm ki, qarşılıqlı hörmətə əsaslanan münasibətlərimiz bütün sahələrdə mövcud imkanlar baxımından genişlənəcək və güclənəcəkdir. Bu böyük qələbə münasibətilə Sizi bir daha təbrik edir, Sizə cansağlığı, qardaş Azərbaycan xalqına əmin-amanlıq və tərəqqi arzu edirəm".

# Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağı Meydanında olub








*Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Dövlət Bayrağı Meydanında olublar. AZƏRTAC xəbər verir ki, fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

Dövlətimizin başçısı əsgərləri salamladı. Azərbaycan Respublikasının dövlət himni səsləndi. Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi. Sonda xatirə şəkli çəkdirildi.



# Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Türkiyənin gənclik və idman nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Bilal Ərdoğanı və Türkiyə Respublikasının gənclik və idman naziri Osman Aşkın Bakı qəbul edib.

AZƏRTAC xəbər verir ki, nazir Osman Aşkın Bak və Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdılar. Qonaqlar Prezident İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə bir daha təbrik etdilər və bu qələbənin Türkiyədə böyük qürur hissi ilə qarşılandığını bildirdilər. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin gənclər siyasəti və idman sahəsində əməkdaşlığının möhkəmləndirildiyi qeyd olundu, Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasının İslam ölkələri arasında əməkdaşlığın və həmrəyliyin genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan Beynəlxalq Atom Enerjisi Agentliyi üçün çox mühüm tərəfdaşdır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amanonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edən Yukio Amano Prezident İlham Əliyev ilə inauqurasiya mərasimi günündə görüşməsinin əlamətdar hadisə olduğunu dedi. Azərbaycanın Beynəlxalq Atom Enerjisi Agentliyi üçün çox mühüm tərəfdaş olduğunu qeyd edən Yukio Amano ölkəmizlə yüksək səviyyəli əməkdaşlıq həyata keçirildiyini, bir sıra mühüm layihələr üzrə birgə iş aparıldığını vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Yukio Amanonun ölkəmizə səfərinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olmasından və bir sıra birgə layihələr üzərində işlərin aparılmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkəmizlə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

19 aprel 2018-ci il

# Azərbaycan hər zaman qardaş müsəlman ölkələrinin dəstəyini hiss edir”

## *Prezident İlham Əliyev İƏT Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb*

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyasında iştirak edən gənclər və idman nazirləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, Azərbaycan hər zaman qardaş müsəlman ölkələrinin dəstəyini hiss edir və öz növbəsində, bütün beynəlxalq təşkilatlarda qardaşlarını dəstəkləyir:

“Biz BMT-də, sözsüz ki, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi başqa müxtəlif regional təşkilatlarda fəal əməkdaşlıq edirik. Azərbaycan qardaş ölkələrlə həmrəyliyin və tərəfdaşlığın gücləndirilməsi siyasətini



edirik. İkincisi, Sizin də düzgün buyurduğunuz kimi, gənclər müsəlman dünyasında əhalimizin böyük seqmentini təşkil edir və biz təəssüf hissi doğuran hadisələrə, ekstremizmə və terrorizmə göstərdiyimiz münasibətlə bağlı onlara ümid verməliyik. Beləliklə, mən istəyirəm ki, biz, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransı istər idman, istərsə də digər fəaliyyətlər vasitəsilə yalnız gənc nəslimizin çox yaxşı mənada iştirakını nəzərdə tutan proqramın tərtib olunmasını təmin etsin. Mən həmişə deyirəm ki, gənclərimiz müəyyən yaxşı keyfiyyətlərə malik gənclərdir, əks halda, onlar pis işlər görərdilər. Ən yaxşı hal müsəlman ölkələrində sırf gənclər və cəmiyyət üçün nəzərdə tutulmuş mənalı proqram və siyasətlərin tərtib edilməsidir.”





davam etdirəcək. Biz hər zaman bir-birimizi dəstəkləməli, bir-birimizin yanında olmalıyıq. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanla Azərbaycan arasında torpaqlarımızın 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edib. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı öz torpaqlarından qaçqın və məcburi köçkünə çevrilib. Biz etnik təmizləməyə məruz qalmışıq. Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Hazırda bu soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınır. Biz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının üzvləri olan qardaşlarımızın Azərbaycana göstərdikləri davamlı dəstəyə görə çox minnətdarıq. Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarda hər şeyi dağıdıb. ATƏT iki dəfə işğal olunmuş ərazilərə faktaraşdırıcı missiyalar göndərib. Onların hesabatı bizim tarixi və dini abidələrimizə qarşı vandalizm aktı törədildiyini göstərir. Məscidlərimiz Ermənistan tərəfindən dağıdılıb. Məzarlarımız, tarixi abidələrimizin hamısı dağıdılıb. Hər şey dağılıb. Xalqımız, həmçinin mədəni soyqırımına məruz qalıb. Lakin hər zaman dediyim kimi, onlar bizim yaddaşımızı, inamımızı məhv edə bilməzlər. İşğal olunmuş torpaqların bir hissəsi iki il bundan əvvəl azad ediləndən sonra Azərbaycan həmin ərazini yenidən qurmağı qərara aldı və hazırda orada insanlar yaşayır. Biz orada 150 evdən ibarət qəsəbə tikdik, məktəb, tibb mərkəzi və məscid inşa etdik. Bu məscid ermənilərin qədim Şuşa şəhərində dağıtdığı məscidin eynisidir. Bunu etməklə biz bir daha barbarlara göstəririk ki, onlar bizim taleyimizi məhv edə bilməzlər. Biz işğal olunmuş bütün ərazilərə qayıdacağıq və oraları yenidən quracağıq. Biz o ərazilərə həyatı qaytaracağıq. Mən Azərbaycana hər zaman göstərdikləri davamlı dəstəyə və həmrəyliyə görə müsəlman dünyasındakı bütün qardaşlarımıza çox minnətdaram. Bu, bizi daha da gücləndirir. Biz müsəlman ölkələrinin həmrəyliyinə böyük töhfələr veririk. Ötən il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunub. Biz Azərbaycanda və xaricdə çox sayda tədbirlər təşkil edərək müsəlman ölkələrinin birliyini nümayiş etdirdik. Biz dinimizin əsl simasını, mədəniyyətimizi, tarixi irsimizi, potensialımızı və bəşəriyyətin inkişafına verdiyimiz töhfəni nümayiş etdiririk. Yəqin ki, bilirsiniz, ötən il biz IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdik. Bu da bizim birliyimizi nümayiş etdirdi. Bu, təkcə idman tədbiri deyildi. Bu, bizim birliyimizin, həmrəyliyimizin və imkanlarımızın nümayişi idi. Ona görə də, biz bütün müsəlman ölkələri arasında həmrəyliyə öz töhfəmizi verməyə çalışırıq. Həmçinin sizə məlumat vermək istərdim ki, bu il bizim qədim şəhərimiz olan Naxçıvan ISESCO tərəfindən İslam mədəniyyətinin paytaxtı elan olunub və biz bunu geniş şəkildə qeyd edirik. Bir neçə il bundan əvvəl paytaxtımız Bakı da İslam mədəniyyətinin paytaxtı idi. Bu, bizim gördüyümüz işlərin müsəlman dünyasına nümayişi, birlik və həmrəyliyin nümayişidir.”

Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Useymin çıxış edib. O bildirib ki, İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini dəstəkləyir:

“Cənab Prezident, bizi belə mötəbər tədbir, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirləri Konfransının dördüncü sessiyası çərçivəsində qəbul etdiyinizə və nazirlərə dəstək göstərdiyinizə görə çox sağ olun. Bu, İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinin bir hissəsidir. İcazə verin, əvvəlcə yenidən prezident seçilməyiniz münasibətilə Sizi təbrik edim. Mən Uca Allaha bu böyük xalqın uğuru, sülh və firavanlıq içində yaşaması üçün dua edirəm. Mən, həmçinin İslam Əməkdaşlıq Təşkilatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini dəstəklədiyini vurğulamaq istəyirəm. Bu, İslam Əməkdaşlıq Təşkilatı üçün prioritetdir, biz bunu bütün qətnamələrimizdə qeyd edirik, istər sammit çərçivəsində, istərsə də xarici işlər nazirlərinin qətnamələrində. Bu, haqq işidir və biz, sadəcə, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinin icra olunmasını tələb

Daha sonra İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə Prezident İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun “Gənclərin hamisi” ilk Fəxri Nişanı və xatirə hədiyyəsi təqdim olundu.

Prezident İlham Əliyev:

-Bu mükafata görə çox sağ olun. Mən bunu yüksək qiymətləndirirəm. Təşəkkür edirəm. Doğru olaraq qeyd etdiyiniz kimi, Azərbaycan ölkələrimizin gənclərinin bir araya gəlməsində mühüm rol oynayıb. Şadam ki, Gənclər Forumu uğurla fəaliyyət göstərir. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, məqsədimiz ölkələrimiz arasında həmrəyliyi gücləndirməkdir ki, gənc nəsil bizim yolumuzu davam etdirsin.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

# "Bakı artıq siyasi, mədəni və idman sahələrində bir çox mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir"

## Prezident İlham Əliyev Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Koreya Respublikasının Beynəlxalq Sərgilər Bürosunda nümayəndəsi, səfir Cai-Çul Çoyun başçılıq etdiyi Beynəlxalq Sərgilər Bürosunun nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin adından çıxış edən Cai-Çul Çoy dövlətimizin başçısını ölkəmizdə keçirilən prezident seçkilərində qələbəsi və inauqurasiya mərasimi münasibətilə təbrik etdi.

Cai-Çul Çoy qeyd etdi ki, Azərbaycan kimi gözəl bir ölkəni tanımaq şansı əldə etmələrindən və burada gedən dinamik proseslərin şahidi olmalarından məmnunluq hissi keçirirlər. Cai-Çul Çoy bildirdi ki, nümayəndə heyətinin səfərinin əsas məqsədi Azərbaycanda mövcud olan şəraiti və imkanları araşdırmaq. Qonaq səfər zamanı ölkəmizdə bir sıra səmərəli görüşlər keçirdiklərini, bu müddət ərzində apardıqları müşahidələr nəticəsində müsbət mövqedə olduqlarını vurğuladı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi. Azərbaycanın gənc müstəqil dövlət olduğunu deyən dövlətimizin başçısı qısa müddət ərzində siyasi, iqtisadi və sosial sahələrdə genişmiqyaslı islahatlar həyata keçirildiyini, ölkəmizin artıq uğurlu inkişaf, eləcə də siyasi, iqtisadi və dövlət quruculuğu sahələrində sürətli transformasiya nümayiş etdirməyə nail olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu illər ərzində görülən işlər göstərir ki, gənc bir dövlət çox uğurlu müstəqil yaşaya və çoxlu sayda beynəlxalq tədbirlər təşkil edə bilər.

Dövlətimizin başçısı Bakının artıq siyasi, mədəni və idman sahələrində bir çox mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini vurğuladı. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə və burada əldə olunan nailiyyətlərlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını dedi, səfərin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.

# Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında mövcud əməkdaşlıq əlaqələri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri vəzifəsini icra edən Elmar Məmmədyarov Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarov Azərbaycan və Beynəlxalq Atom Enerjisi Agentliyi arasında mövcud effektiv əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Agentliyin fəaliyyət və yardımının Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Görüşdə Beynəlxalq Atom Enerjisi Agentliyi ilə Texniki Əməkdaşlıq Proqramı çərçivəsində ölkəmizdə həyata keçirilmiş 22 layihə və icra edilməkdə olan 9 layihənin Azərbaycanın inkişafı və müvafiq qurumların imkanlarının gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Azərbaycanın milli tədqiqat reaktorunun yaradılmasında, istifadə edilməsində və kadrların hazırlanmasında Beynəlxalq Atom Enerjisi Agentliyinin dəstəyi yüksək qiymətləndirilib. Tərəflər sülh məqsədləri üçün nüvə texnologiyasının tətbiqinə toxunaraq, səhiyyə, kənd təsərrüfatı, neft sənayesi kimi sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıblar.

Söhbət zamanı nüvə reaktorlarının təhlükəsizliyi məsələsindən danışan Elmar Məmmədyarov Ermənistanda yerləşən, bölgəmiz üçün ciddi təhlükə mənbəyi olaraq köhnəlmiş Çernobıl texnologiyası əsasında fəaliyyət göstərən "Metsamor" AES-in istismarından irəli gələn təhlükələri diqqətə çatdırıb. Həmçinin o, "Metsamor" AES-in nüvə və radioaktiv maddələrin qaçaqmalçılığı baxımından ciddi təhlükə mənbəyi olduğunu vurğulayaraq, nüvə təhlükəsizliyi konsepsiyası çərçivəsində Agentlik tərəfindən bu istiqamətdə zəruri addımların atılmasının vacibliyini qeyd edib.

Görüşdə beynəlxalq nüvə təhlükəsizliyi, dinc məqsədlərlə nüvə texnologiyasından istifadə edilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Kaspi" Təhsil Şirkəti və "Gənc istedadlar" liseyi şagirdlərinin rəsm əsərlərindən ibarət sərgi açılıb








Azərbaycan Xalq Cümhuriyyəti (AXC) və Bakı Dövlət Universitetinin (BDU) yaradılmasının 100 illik yubileyi münasibətilə "Kaspi" Təhsil Şirkəti və BDU-nun nəzdindəki "Gənc istedadlar" liseyi şagirdlərinin rəsm əsərlərindən ibarət sərginin açılışı olub.

Universitetdən AZƏRTAC-a bildiriblər ki, açılış mərasimində "Kaspi" Təhsil Şirkətinin təsisçisi Sona Vəliyeva AXC-nin və BDU-nun 100 illik yubileylərinə həsr olunmuş tədbirin əhəmiyyətini diqqətə çatdırıb. "Kaspi" Təhsil Şirkətinin missiyası və gələcək hədəfləri barədə məlumat verən S.Vəliyeva şirkət ilə BDU arasında imzalanmış əməkdaşlıq müqaviləsindən danışıb, təhsil müəssisələrinin əlaqələrini yüksək dəyərləndirib. Şagirdlərin rəsm əsərləri barədə müsbət fikirlərini bildirən S.Vəliyeva onlara uğurlar arzulayıb.

BDU-nun rektoru, akademik Abel Məhərrəmov Prezident İlham Əliyevin təhsil sahəsi ilə bağlı imzaladığı sənədlərin əhəmiyyətini qeyd edib. 2007-ci ildən fəaliyyətə başlayan "Gənc istedadlar" liseyinin fəaliyyətindən, onun təhsil müəssisələri, xüsusilə "Kaspi" Təhsil Şirkəti ilə əlaqələrinin əhəmiyyətindən danışan rektor liseydə qazanılan uğurları diqqətə çatdırıb.

Akademik A.Məhərrəmov şagirdlərin yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması baxımından təşkil edilən tədbirlərin önəmli olduğunu söyləyib.

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə şagirdlərin rəsm əsərlərini yüksək dəyərləndiriblər. Hər iki təhsil müəssisəsindən beş nəfər, ümumilikdə on şagird qalib olub, digər məktəblilərə isə fəxri fərmanlar təqdim edilib. Yaxın günlərdə liseylərarası stolüstü tennis, şahmat, futbol və intellekt yarışlarının keçirilməsi nəzərdə tutulur.



# Mətbuat Şurası İdarə Heyətinin yeni tərkibdə ilk iclası keçirilib

Aprelin 18-də Azərbaycan Mətbuat Şurası (MŞ) İdarə Heyətinin yeni tərkibdə ilk iclası keçirilib. Şuradan AZƏRTAC-a verilən məlumata görə, gündəlik qəbul olunduqdan sonra MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək bu gün Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasiminin keçirildiyini xatırladaraq, bu münasibətlə İdarə Heyətinin üzvləri adından dövlətimizin başçısını təbrik edib. O, Azərbaycan jurnalistlərinin VII qurultayının qərarı ilə Şuranın tərkibinin genişləndirildiyini vurğulayıb. Əlavə edib ki, hazırda İdarə Heyəti 23-ü əsas, 6-sı ehtiyat olmaqla 29 nəfərdən ibarətdir.

İclasda əvvəlcə Şuranın sədr müavinləri seçilib. MŞ İdarə Heyətinin üzvləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev və Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin namizədlikləri digər üzvlər tərəfindən dəstəklənib.

Sonra Şuranın yeni icraçı katibinin müəyyənləşdirilməsi məsələsinə baxılıb. Bu vəzifəyə MŞ sədrinin təqdimatı əsasında tanınmış hüquqşünas, uzun müddət Şuranın hüquq komissiyasının işində yaxından iştirak etmiş Şəmsəddin Əliyevin namizədliyi təsdiqlənib.

İclasda MŞ-nin komissiyalarının sədrlərinin və tərkibinin müəyyənləşdirilməsi məsələsinə də baxılıb. Məlumat verilib ki, qurumun İdarə Heyətinin üzvləri növbəlilik əsasında şikayətlər üzrə komissiyanın işində iştirak edirlər. Nizamnaməyə görə, komissiyaya sədrliyi də Şura sədrinin müavinləri növbəlilik əsasında həyata keçirirlər. Tərkib iki ildən bir yenilənir. Müzakirələrdən sonra Müşfiq Ələsgərli sədr olmaqla növbəti iki il müddətinə şikayətlər üzrə komissiyanın tərkibi təsdiqlənib.

Şuranın İdarə Heyətinin üzvləri, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə reket jurnalistikaya qarşı mübarizə komissiyasının, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin rəhbəri Azər Həsrət beynəlxalq əlaqələr komissiyasının, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli mətbuatla dövlət qurumları arasında problemlərin həlli daimi komissiyasının, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli dil komissiyasının, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı internet medianın inkişafı üzrə komissiyanın sədrləri seçiliblər. Həmçinin komissiyaların, Şuranın apellyasiya qrupunun tərkibi təsdiqlənib.

İclasda Mətbuat Şurası haqqında qanun layihəsinin hazırlanması istiqamətində işçi qrupunun fəaliyyəti məsələsinə baxılıb. MŞ-nin İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Çingiz Qənizadə qrupun rəhbəri seçilib. Mətbuat Şurasının nəzarət-təftiş komissiyasının yeni sədri də təqdim olunub. Nizamnaməyə əsasən komissiyaya qurultay tərəfindən seçilmiş üç şəxs arasından sədr seçilir. Bu vəzifəyə "Xalq qəzeti"nin əməkdaşı Tahir Aydınoğlu seçilib.

# Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti dövründə 34 min 963 sahibkara 2,1 milyard manatdan çox güzəştli kredit verilib

***İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti dövründə ümumi dəyəri 4,7 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə 34 min 963 sahibkara 2,1 milyard manatdan çox güzəştli kredit verilib.***



Bu barədə Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev deyib.

Qeyd edilib ki, bu kreditlər hesabına 160 minədək yeni iş yeri açılıb. Kreditlərin 71 faizi aqrar sektorun, 29 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür. Maliyyələşdirilmiş layihələrin 93 faizini kiçik və orta həcmli kreditlər təşkil edir. İndiyədək verilmiş 2,1 milyard manat güzəştli kreditin 1 milyard manatı büdcə (47 faiz), 1,1 milyard manatı isə geri qaytarılan vəsaitlərin (53 faiz) payına düşür.

# Fərid Cəfərov: Gənclər Fondu öz fəaliyyətində əlçatanlığa və şəffaflığa üstünlük verir

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il martın 7-də "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsinin yaradılması ilə bağlı Sərəncam imzalayıb. Dövlətimizin başçısının martın 13-də imzaladığı daha iki sərəncamla isə Fondun icraçı direktoru və Müşahidə Şurasının üzvləri təyin olunublar. Fondun icraçı direktoru Fərid Cəfərov qurumun fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb.***



- Fərid müəllim, Gənclər Fondu yarandığı gündən ölkəmizdə dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir. Ölkəmizdə gənclərə, o cümlədən Fondun fəaliyyətinə daim yüksək diqqət və qayğı göstərən Prezident İlham Əliyev 2018-ci il martın 7-də "Azərbaycan Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsinin yaradılması, bir neçə gün sonra isə sizin icraçı direktor vəzifəsinə, eləcə də Müşahidə Şurasının üzvlərinin təyin olunması barədə sərəncamlar imzaladı. Fürsətdən istifadə edib, sizi Gənclər Fondunun icraçı direktoru vəzifəsinə təyin olunmağınız münasibətilə təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayırıq.

***Bilmək istərdik ki, bu mühüm dəyişikliklər Fondun fəaliyyətində özünü necə əks etdirəcək?***

- Təbriklərinizə görə təşəkkürümü bildirirəm. Sualınıza keçməzdən əvvəl bir neçə gün öncə ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisə - prezident seçkilərində möhtəşəm qələbə qazanması münasibətilə dövlətimizin başçısı İlham Əliyevi bütün gənclərimiz adından təbrik etmək istərdim. Bilirsiniz ki, həm seçki prosesində, həm də seçkidən sonrakı dövrdə gənclərimiz yüksək fəallıq nümayiş etdirdilər. Bu fəallıq təbii ki, səbəbsiz deyil. Bunun əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasəti, dövlətimizin başçısının gənclərimizə yüksək diqqət və qayğısı dayanır. Azərbaycanda dövlət gənclər siyasətinin təməli ümummilli lider Heydər Əliyevin 1997-ci il 2 fevral tarixli Fərmanı ilə qoyulub. Bu siyasət bu gün uğurla davam və inkişaf etdirilir.

Sualınıza gəldikdə, demək istərdim ki, bu, əslində ölkə ictimaiyyətini, xüsusilə də gəncləri, gənclər təşkilatlarını son dövrdə maraqlandıran əsas məqamlardan biridir. Bilirsiniz ki, yeni Nizamnaməyə əsasən, Fondun təşkilati-hüquqi formasında müəyyən dəyişikliklər olub. Qurum artıq publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək. Eyni zamanda, Fondun fəaliyyət sahəsi də genişləndirilib, ona əlavə vəzifələr verilib. Onlardan birini xüsusi vurğulamaq istərdim. Bu, Fonda gənclər sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində, eyni zamanda, bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsində iştirak etmək vəzifəsinin həvalə olunmasıdır.

***- Yeni dəyişikliklər qrant müsabiqələrinin keçirilməsi qaydalarına təsir edəcəkmi?***

- Yeni dəyişikliklərə əsasən, bundan sonra Fond əvvəlki kimi, yalnız layihələrin maliyyələşdirilməsini həyata keçirməyəcək. Qrantların verilməsi təbii ki, bundan sonra da davam etdiriləcək. Sadəcə olaraq, fəaliyyətimiz yalnız bununla məhdudlaşmayacaq. Fond digər istiqamətlərdə də gənclərimizə dəstək olacaq.

Növbəti qrant müsabiqəsinin keçirilməsinə dair sənədlər, qaydalar hazırlıq prosesindədir. Bu qaydalar hazır olduqdan sonra Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçiriləcək. Həmin iclasdan sonra qrant müsabiqəsinin elan edilməsi nəzərdə tutulur.

Bundan başqa, Fondun yeni Nizamnaməsi gənclərin sosial-iqtisadi sahədə təşəbbüslərinin dəstəklənməsi baxımından da bizim üçün mühüm imkanlar yaradır. Buna aşağıdakılar daxildir: aztəminatlı ailələrdən olan tələbələrin təhsil prosesində yataq xərclərinin Fond tərəfindən ödənilməsi, işə düzəlməkdə çətinlik çəkən gənclərimizin əməkhaqlarının bir hissəsinin Nizamnamədə göstərildiyi kimi, bir il müddətində qismən Fond tərəfindən ödənilməsi. Bu, gənclərimizin məşğulluğunun təmin olunmasına əlavə stimuldur. Sosial-iqtisadi sahədə gənclərimizə dəstək olacaq daha bir fəaliyyətimiz isə gənclərin innovativ layihələrinin, xüsusilə də startapların dəstəklənməsi, onlara güzəştli kreditlərin verilməsi olacaq. Eyni zamanda, Fond beynəlxalq səviyyədə gənclərin bilik və bacarıqlarının artırılmasına dəstək göstərəcək. Bu, əsasən gənclərin xaricdə təhsil almalarının, beynəlxalq təşkilatlarda və aparıcı xarici şirkətlərdə təcrübə keçmələrinin, bu proqramlarda iştiraklarının dəstəklənməsindən və maliyyələşdirilməsindən ibarətdir. Ümumilikdə hazırda bu yeni istiqamətlər üzrə fəaliyyətimizin hansı formada qurulacağı ilə bağlı konkret fikirləri yalnız həmin məsələlərlə bağlı hazırlanacaq xüsusi qaydalar, normativ aktlar hazır olduqdan, təsdiqləndikdən sonra söyləmək mümkün olacaq. Yəni, həmin istiqamətlərdən gənclərin hansı formada yararlana biləcəkləri, eyni zamanda, necə müraciət edəcəkləri bu prosesdən sonra müəyyənləşəcək.

***- Fərid müəllim, istərdik, bir qədər də Fondun ötən dövrdəki fəaliyyətinə nəzər salaq. Fondun ötən dövrdəki fəaliyyətinin yekunları barədə nə deyə bilərsiniz? Bundan başqa, yeni dövrdə Gənclər Fondunun fəaliyyətinin əsas istiqamətləri hansılar olacaq?***

Fond 2011-ci ildə yaranıb və ötən müddətdə 10 qrant müsabiqəsi keçirilib. Qrant müsabiqələri 2012-ci ildən başlayaraq müntəzəm təşkil olunur. Bu müsabiqələr çərçivəsində gənclər təşkilatlarının, eləcə də fərdi gənclərin layihələrinin icrası Fond tərəfindən maliyyələşdirilib. Ümumilikdə 10 qrant müsabiqəsi çərçivəsində 4 minə yaxın müxtəlif səviyyəli layihə maliyyələşdirilib. Təkcə ötən il 568 layihənin maliyyələşdirilməsi təmin olunub. Sevindirici haldır ki, bu layihələr bütün regionlarda yaşayan gəncləri əhatə edib. Fond tərəfindən, həmçinin beynəlxalq tədbirlərin ölkəmizdə təşkili, eyni zamanda, xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə, seminarlarda və simpoziumlarda gənclərimizin iştirakı da maliyyələşdirilib.

Yeni dövrdə Fondun fəaliyyətinin bir qədər də genişləndirilməsi nəzərdə tutulub. Haqqında bəhs etdiyim xaricdə təhsil, məşğulluq proqramlarını, eyni zamanda, digər sosial-iqtisadi formada gənclərin dəstəklənməsi üzrə işləri həyata keçiririk. Hazırda əcnəbi tərəfdaşlarımızla birlikdə beynəlxalq təşkilatlarda və xarici şirkətlərdə gənclərin təcrübə keçmək proqramları üzərində çalışırıq. Eyni zamanda, aidiyyəti dövlət qurumlarının və özəl sektorun nümayəndələri ilə birlikdə məşğulluq proqramının icrası üzərində işləyirik. Bu il xaricdə təhsil üzrə vəzifəmizi də icra etməyi planlaşdırırıq. Qeyd edim ki, bu vəzifələrin icrası üçün aprelin 9-da Prezidentin Sərəncamı ilə Gənclər Fonduna əlavə olaraq vəsait ayrılıb. Qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağıq.

Ümumiyyətlə, demək istərdim ki, Azərbaycan Respublikasının Gənclər Fondu öz əlçatanlığı və şəffaf fəaliyyəti ilə gənclərimiz üçün xüsusi instituta çevrilib. Fondun həyata keçirdiyi bütün layihələr gənclərimizin maarifləmməsində, inkişafında mühüm rol oynayıb.

***- Dövlətimizin başçısının Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bununla əlaqədar Fond tərəfindən hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.***

- Bu il ölkəmiz üçün xüsusilə əlamətdar ildir. Yüz il əvvəl Azərbaycanda müsəlman Şərqində ilk demokratik parlamentli respublikanın əsası qoyulub. Azərbaycan Xalq Cümhuriyyəti sonrakı dövrlərdə müasir müstəqil Azərbaycan dövlətinin yaranması üçün əsaslı zəmin yaradıb. Prezident İlham Əliyevin 2018-ci il 10 yanvar tarixli Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Sərəncama əsasən, bu münasibətlə il ərzində silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Gənclər Fondu da bu sırada istisna deyil. Biz həm Bakıda, həm də regionlarda gənclərin iştirakı ilə müxtəlif tədbirlər keçirəcəyik. Bu tədbirlər gənclərin maariflənməsi ilə yanaşı, xalqımızın demokratik ənənələrinin həm ölkə daxilində, həm də xaricdə təbliğinə yönələcək. Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dəyərlərə sadiqliyinin, qabaqcıl addımlarının, xüsusən də ABŞ-dan və Avropanın inkişaf etmiş ölkələrindən daha əvvəl qadınlara seçki hüquqlarının verilməsi və s. amilləri geniş təbliğ etməyə, xaricdə və ölkə gəncləri arasında yaymağa çalışacağıq. Bu tədbirlər Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olmuş Gəncədə də təşkil ediləcək. Eyni zamanda, Bakıda geniş kütləvi tədbirlərin keçirilməsini planlaşdırırıq.

Bu il, həmçinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi qeyd ediləcək. Ulu Öndərimizin anadan olmasının 95 illik yubileyi münasibətilə Fond bir sıra mühüm tədbirlərin təşkilində yaxından iştirak edəcək.

Ümumiyyətlə, Gənclər Fondu digər əlamətdar günlər və hadisələrlə bağlı, gənclərin fəaliyyətinə dair məsələlərlə əlaqədar müxtəlif tədbirlər təşkil edəcək.

***- Maraqlı müsahibəyə görə təşəkkür edir, sizə fəaliyyətinizdə uğurlar arzulayıram.***

- Təşəkkür edirəm. Sağ olun.

## "Armeniareport": Sovet İttifaqı dağılandan sonra ermənilər yalnız qeyri-müstəqil şəraitdə, yoxsulluq içində yaşamağı öyrəndilər



1989-1990-cı illərdə SSRİ-nin tərkibində olan dövlətlər öz müstəqilliyi uğrunda mübarizəyə başladılar. Latviya, Litva, Gürcüstan və Azərbaycanda milli azadlıq hərəkatı başladı. Bu ölkələrin xalqları öz azadlıqları uğrunda canlarından keçdilər və müstəqil dövlətlərə sahib oldular. Ermənistanda isə heç bir azadlıq hərəkatı baş vermədi. Bu xalq müstəqillik uğrunda mübarizənin nə olduğunu bilmədi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "Armeniareport" saytında yayılmış məqalədə yer alıb. Müəllif yazır ki, 90-cı illərin əvvəllərində başlayan Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, bu, milli azadlıq hərəkatı deyildi. Bu münaqişə azadlıq hərəkatı ilə bağlı söylənilən fikirlərin əksinədir. Bu müharibədə çoxlu sayda erməni öldü. Serj Sarkisyanın "Qarabağ gələcəyin azad həyatıdır" fikrini xatırladan jurnalist vurğulayır ki, azad həyatın nə olduğunu bilməyən ermənilər mənasız yerə həyatları ilə vidalaşdılar.

Məqalədə qeyd olunur ki, Sovet İttifaqı dağıldıqdan sonra ermənilər qeyri-müstəqil şəraitdə, yoxsulluq içində yaşamağı öyrəndilər. Ermənilərdən fərqli olaraq Azərbaycan xalqı 1990-cı ilin yanvarında mübarizə apararaq müstəqilliyini qazana bildi. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dövləti xalqı birləşdirən konsepsiyaya sahibdir və qəhrəmanlarının qanı ilə möhürlənmiş dövlətləri var.

Eyni fədakarlığı Ukrayna xalqının da etdiyini bildirən müəllif bu ölkənin də insanlarının azad, suveren şəkildə yaşadıqları qeyd edir. On il bundan əvvəl martın 1-də Ermənistanda azadlıq hərəkatına start verildiyini diqqətə çatdıran jurnalist vurğulayır ki, bunun heç bir nəticəsi olmadı, erməni xalqının qanı tökülsə də Serj Sarkisyan prezidentlik postundan getmədi. Jirayr Sefilyan, Armen Martirosyan, Gevorg Safaryan kimi müxalifət liderlərinin alovlanan azadlıq mübarizəsi qısa zamanda söndü. Bu gün isə bütün nəzərlər Nikol Paşinyanın başlatdığı etiraz aksiyaları üzərində cəmləşib.

# "Nar" ADA Universiteti ilə əməkdaşlığı genişləndirir



18 aprel 2018-ci il tarixdə imzalanmış əməkdaşlıq razılaşması ilə "Nar" və ADA Universiteti mövcud əməkdaşlığı genişləndirməyə qərar verdilər. Nəzərdə tutulmuş layihələr arasında yüksək nəticələr göstərən tələbələrə dəstək üçün ADA Universiteti Fondu ilə əməkdaşlıq, startap layihələri dəstəkləyən ADA İnnovasiya Mərkəzi ilə tərəfdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər mövcuddur.

Razılaşmanın imzalanma mərasimində "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke ADA Universiteti ilə əməkdaşlığın "Nar"-ın irimiqyaslı korporativ sosial məsuliyyət layihələrinin reallaşdırılması baxımından böyük perspektivlər vəd etdiyini bildirdi. "Mən inanıram ki, bu məhsuldar tərəfdaşlıq platformu ölkədə təhsil və maariflənmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə və yeni innovativ layihələrin inkişafına böyük töhfə verəcəkdir", - deyə cənab Panke qeyd etdi.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə elm və təhsil layihələrinin "Nar"-ın sosial məsuliyyət strategiyasının əsas istiqamətlərinin biri kimi dəyərləndirildiyi üçün mobil operator nümayəndələrinə minnətdarlığını bildirdi: "ADA-nın təklif etdiyi karyera yönümlü müasir akademik proqramlar nəzəriyyə ilə təcrübəni bir araya gətirir. Bu mənada, "Nar"-ın öz sahəsi üzrə genis? təcrübəyə malik pes?əkarlarının tələbələrimizlə quracaqları ünsiyyətin böyük fayda verəcəyinə biz də inanırıq".

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.

"Nar" çoxşaxəli korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biri kimi təhsil və maariflənmənin inkişafına dəstək çərçivəsində təhsil müəssisələri və müvafiq qurumlarla tərəfdaşlıq münasibətləri qurub, tələbələr üçün həvəsləndirici aksiyalar keçirib, müxtəlif bilik müsabiqələri və intellektual yarışların sponsoru qismində çıxış edib. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

# "Made in Azerbaijan" brendi dünya bazarlarını fəth edir




***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan iqtisadi islahatların prioritetlərindən biri ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının istehsalının və ixracının təşviqidir. Artıq demək olar ki, Azərbaycan brendi dünyada şöhrət qazanmağa başlayıb. Məhsullarımızın xarici bazarlarda təşviqinin daha da gücləndirilməsi üçün atılan praktik addımlar öz müsbət nəticəsini verməkdədir. Ötən il "Made in Azerbaijan" brendi ilə 3179 çeşiddə məhsulun ixracı bunu deməyə əsas verir.***

Qeyd edək ki, bu ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 123 milyon dollar təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, bu ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artıb. İlin ilk ayı ərzində 36,8 milyon dollar məbləğində qeyri-neft məhsulları Rusiya Federasiyasına ixrac edilib. Bundan başqa, Türkiyəyə 23 milyon, İsveçrəyə 17,9 milyon, Gürcüstana 11,3 milyon və Çinə 4,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Yanvar ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında qızıl birinci yerdə qərarlaşıb. Bu siyahıda ikinci yeri xurma, üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen tutub. Ümumiyyətlə, yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 35 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 10 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 5 milyon, kimya sənayesi məhsullarının ixracı 3,6 milyon dollar olub. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında meyvə-tərəvəzin ixracı 45 faiz, kimya sənayesi məhsullarının ixracı 36 faiz, pambıq ixracı 20 faiz artıb.

2018-ci ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın 15 ölkəsinə peyktelekommunikasiya xidmətləri də ixrac edilib. Cari ilin ilk ayında "Azərkosmos" ASC peyktelekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 423 min dollar məbləğində gəlir əldə edilib. "Azərkosmos" ASC-nin yanvar ayında xidmət ixracı, əsasən, BƏƏ, Almaniya, Misir, Gürcüstan, Çin, Qırğızıstan, Kipr, CAR, Birləşmiş Krallıq, Ukrayna və digər ölkələrə olub.

Yanvar ayı ərzində "Azexport.az" portalına daxil olan ixrac sifarişləri 81,5 milyon dollar olub. 2017-ci ilin yanvar ayından bu ilin 31 yanvar tarixinə kimi portala dünyanın 78 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 556,6 milyon dollar təşkil edib. 2018-ci ilin yanvar ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya, Türkiyə, Ukrayna, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri qərarlaşıb.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə, məlum olub ki, cari ilin yanvar ayında ən çox ixrac sifarişi şərab, çay, fındıq ləpəsi, pomidor şirəsi, nar, nar konsentratı və alma olub. Həmçinin, lobya, toyuq yumurtası, dekorativ güllər, kosmetik vasitələr, quru süd, dekorativ qurğular, qənnadı məhsulları, meyvə cemi, biyan kökü, mebel dəsti, mühərrik yağı, velosiped, pambıq yağı, boya məhsulları, pambıq toxumu (çiyid), kərpici və s. mallara da sifariş daxil olub. Bu ilin ilk 2 ayında Azərbaycandan 217 min 283 ton neft məhsulları, 398 milyon 840 min kilovat/saat elektrik enerjisi, 10 min 568 ton kimya sənayesi məhsulları, 205 milyon 48 min kubmetr təbii qaz, 3 milyon 648 min 802 ton xam neft ixrac edilib.

Bir sözlə, görünən odur ki, Azərbaycanda Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət nəticəsində, özəl sektorun inkişafı daha da sürətlənib, ixrac coğrafiyası daha da genişlənib.

***"Səs" Analitik Qrupu***



# "Bu siyasətin alternativinin olmaması öz təsdiqini bir daha tapdı"

## *YAP Tərtər rayon təşkilatında görülən işlərin nəticələri və qarşıda duran vəzifələrlə bağlı şura iclası keçirilib*

Dünən 11 aprel prezident seçkiləri ilə əlaqədar YAP Tərtər rayon təşkilatı tərəfindən görülən işlərin nəticələri və qarşıda duran vəzifələrlə bağlı şura iclası keçirilib. Şura iclasında çıxış edən YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov qeyd edib ki, demokratik, azad, şəffaf şəraitdə keçirilən 11 aprel prezident seçkiləri ölkəmizdə həyata keçirilən daxili və xarici siyasətin xalqımız tərəfindən, birmənalı olaraq, müdafiə olunmasının təntənəsi kimi Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin qələbəsi ilə nəticələnmişdir: "Bu qələbə bir daha əyani şəkildə sübut etdi ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Möhtərəm Prezident İlham Əliyevin uğurla davam etdirdiyi bu siyasətin alternativinin olmaması öz təsdiqini bir daha tapdı".

R.Şabanov 11 aprel 2018-ci il tarixdə keçirilmiş prezident seçkilərində YAP-ın VI Qurultayının qərarlarına müvafiq olaraq, rayon təşkilatının prezident seçkilərinin yüksək təşkilatçılıq, azad və şəffaf şəraitdə keçirilməsinin təmin olunması üçün bütün zəruri addımların atıldığını, rayon təşkilatının qeydiyyatında olan 6193 nəfər partiya üzvünün səfərbər etdiyini, partiyamızın namizədi Cənab İlham Əliyevin parlaq qələbəsinin əldə olunmasına hər bir seçicinin fəal iştirakını təmin etmişdir.

Təşkilat sədri onu da bildirib ki, seçkilərin keçirilməsində yüzlərlə fəal YAP üzvlərindən dairə və məntəqə seçki komissiyalarına müşahidəçilər təyin olunmuş, bu şəxslər seçkilərdə şəffaflığın və demokratikliyin qorunması işində yaxından iştirak etmişlər. İclasda şura üzvlərindən Kamil Məmmədov, Fitat Əliyeva, Məhəbbət Məmmədov, Faiq Məmmədov və digərləri də çıxış edərək, rayon təşkilatının seçiqabağı təbliğat-təşviqat kampaniyasının yüksək səviyyədə təşkil edərək, həyata keçirilməsində, builki prezident seçkilərində hər bir yaşayış məntəqəsi üzrə keçirilən mitinq-görüşlərdə seçicilərin yüksək fəallıq nümayiş etdirmələrindən danışdılar. İclasda belə bir yekdil fikir söylənildi ki, prezident seçkilərində əldə etdiyimiz növbəti tarixi qələbəmiz bizlərdən daha fəal və daha məsuliyyətli olmağı tələb edir.

Şuranın iclasında o fikir də vurğulandı ki, rayon təşkilatı bundan sonra da Yeni Azərbaycan Partiyasının namizədinin növbəti 7 ildə də, ölkəmizə başçılıq edəcəyini nəzərə alaraq, ölkəmizdə və rayonumuzda Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin uğurla nəticələnməsi üçün bütün qüvvələri səfərbər edəcəkdir.

***Nəzakət***

# Qaradağ rayonu inkişafının yeni mərhələsində

## *Prezident İlham Əliyev: "Əminəm ki, Qaradağ rayonu bundan sonra Azərbaycanın iqtisadiyyatında daha da böyük rol oynayacaq"*

***Bu gün, birmənalı şəkildə demək olar ki, Azərbaycan, nəinki regionun, ümumiyyətlə dünyada ən inkişaf edən dövlətlər sırasında öncül yerlərdən birini tutur. Həyatımızın bütün sahələrində, o cümlədən, sosial, iqtisadi, mədəni, bir sözlə, bütün sahələr üzrə aparılan siyasət nəticəsində, əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırmaqdadır. Söz yox ki, dövlətimizin sürətli və ardıcıl inkişafına təkan verən bütün bu tədbirlər böyük uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin praktik nəticələridir. Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır.***




### Qaradağ rayonunda qeyri-neft sektoru inkişaf etdirilir

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, kənd yolları asfaltlaşdırılmış, rayonların ucqar kəndləri belə qazlaşdırılmış, yaşayış məntəqələri içməli su ilə təmin olunmuş, rabitə sistemi yüksək səviyyədə qurulmuş və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılmışdır. Regionlarda ən müasir tələblərə cavab verən yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istfadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır. Bu gün bütün ölkə üzrə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir. Hər bir şəhər və rayonlara əhalinin sosial-iqtisadi durumunun yaxşılaşmasına, yeni iş yerlərinin açılmasına xidmət edə biləcək yerli və xarici iş adamaları tərəfindən investisiyalar qoyuluşu həyata keçirilir. Bakının Qaradağ rayonun timsalında da biz bunun təsdiqini görə bilərik. Rayonun sosial-iqtisadi sahələrinin inkişafına ötən il 369 milyon 093,1 min manat investisiya qoyulmuşdur. İstifadə edilmiş investisiyaların 246 milyon 876,5 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Müvafiq Dövlət Proqramına uyğun olaraq, rayonun bütün qəsəbələrində müasir texnologiyalar əsasında ATS-lərin nömrə tutumlarının, internet xidmətlərinin artırılması işləri aparılır. Qobustanda yeni ATS, Ələt qəsəbəsinin Şıxlar yaşayış məntəqəsində poçt şöbəsi inşa edilib. Korgöz qəsəbəsində yeni poçt şöbəsi tikilib əhalinin istifadəsinə verilmişdir. Qaradağ rayonunda genişmiqyaslı islahatların həyata keçirilməsi, yeni müəssisələrin yaradılması nəticəsində, iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə əhəmiyyətli nəticələr əldə olunmuşdur. Bu ilin üç ayı ərzində rayonda muzdla işləyən işçilərin orta aylıq nominal əmək haqqı 956,4 manat olmuşdur ki, ondan mədənçıxarma sənayesində 1249,1 manat, emal sənayesində 1775,6 manat, tikintidə isə 1187,7 manat olmuşdur. Rayonda sosial sahənin inkişafı da təmin edilir. Belə ki, bütün qəsəbələrdə təmir-abadlıq işləri yerinə yetirilir, yeni məktəblər, uşaq bağçaları və səhiyyə ocaqları yenidən əsaslı təmir olunur. Bu gün Qaradağ rayonu mövcud sənaye potensialı, ölkənin neft-qaz sektorunda və sürətlə təşəkkül tapan yeni nəqliyyat infrastrukturunda aparıcı rolu ilə təkcə paytaxtın deyil, bütövlükdə, Azərbaycanın iqtisadi həyatında xüsusi yerə malikdir. Bunu adi gözlə, xəritəyə baxaraq da təxmin etmək mümkündür.

Qeyd edək ki, Qaradağ rayonunun ərazisi (1080 kvadrat kilometr) paytaxtın ümumi ərazisinin təxminən yarısı qədərdir. Ərazisi Xəzər sahili boyunca 106 km uzanan, Şirvan şəhəri, Şamaxı, Salyan, Hacıqabul, Abşeron rayonları, habelə, Bakının Binəqədi, Yasamal, Səbail rayonları ilə inzibati sərhədi olan Qaradağ coğrafi parametrləri ilə respublikanın bir çox kənd rayonlarını belə üstələyir. Bu coğrafi imkanlar içərisində isə nəhəng iqtisadi potensialı var. 30-dək sənaye müəssisəsi, o cümlədən, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, Qaz Emalı Zavodu, Ə.Əmirov və N.Nərimanov adına neft-qaz çıxarma idarələri, "Holcim" və "Norm" sement zavodları, Metal Konstruksiyalar Zavodu, Bakı Gəmiqayırma Zavodu və s. burada yerləşir.

Təbii ki, Qaradağ rayonun sosial-iqtisadi inkişafında Ulu Öndərimizin ən layiqli siyasi varisi Prezident İlham Əliyevin müstəsna xidmətləri var. Cənab İlham Əliyev hələ ötən əsrin 90-cı illərinin ortalarında Qaradağ rayonunda millət vəkili kimi fəaliyyəti dövründə çox böyük işlər görüb. Azərbaycanda həmin illərdə, ilk dəfə olaraq, sosial-inkişaf proqramı da Cənab İlham Əliyevin təşəbbüsü və iştirakı ilə, məhz Qaradağ rayonunda qəbul edilib və "Qaradağın sosial-iqtisadi inkişafına yardım fondu" çərçivəsində rayonda böyük həcmdə layihələr həyata keçirilib, məktəb və uşaq bağçaları əsaslı təmir olunub, yollar çəkilb, qəsəbələr adadlaşdırılıb. Bu işlər hazırda da uğurla davam edir.

### Qaradağ rayonu Azərbaycanın ən iri neft-qaz sənaye müəssisələrinin yerləşdiyi məkanlardandır

Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ rayonuna səfərləri zamanı əhali ilə görüşlərində rayondakı inkişafı yüksək qiymətləndirərək, bu işlərin davamlı olması üçün lazımi dəstəyin göstəriləcəyini bildirib. Prezident İlham Əliyev Qaradağ rayonun inkişaf göstəricilərini yüksək qiymətləndirərək demişdir: "Qaradağ rayonunun Azərbaycanın xəritəsində, iqtisadiyyatında özünəməxsus yeri vardır. Burada böyük sənaye müəssisələri yerləşir. Qaradağ rayonu Azərbaycanın bu keçid dövründə problemlərin həll olunmasında çox səylər qoyur və mən bəyan etmək istəyirəm ki, Bakı şəhərinin başqa rayonları ilə müqayisədə buradakı işlər bizim üçün daha da qiymətlidir. Əminəm ki, Qaradağ rayonu bundan sonra Azərbaycanın iqtisadiyyatında daha da böyük rol oynayacaq". Onu da qeyd etmək yerinə düşərdi ki, Qaradağ rayonu inzibati ərazi vahidi kimi Puta-Şubanı mədəninin kəşfi ilə əlaqədar yaradılmışdır. 1923-cü il mayın 7-də Puta qəsəbəsindəki klubda ilk partiya konfransı keçirilmiş və rayonun əsası qoyulmuşdur. Rayonun adı Zaqafqaziyada ilk dəmiryol stansiyalarından olan Qaradağ stansiyasının adı ilə bağlıdır. Hazırda Qaradağ rayonunun inzibati ərazi vahidliyinə 11 qəsəbə daxildir. Qaradağ rayonunun mərkəzi şəhər tipli Lökbatan qəsəbəsidir. Lökbatan adının tarixi hazırkı Xocəsən və Sənqəçal qəsəbələri arasında olan karvan yolu ilə bağlıdır. Vaxtı ilə qəsəbənin ərazində dəvə karvanlarının dayanacaqları olmuş və dəvələr bataqlıqlara batdıqlarından ərazi Lökbatan (dəvə batan) adlandırılmışdır. Lökbatan qəsəbəsinin əsası 1931-1934-ci illərdə ərazidə 45 saylı neft quyusunun fontanı (18 may 1933-cü il) ilə əlaqədar qoyulub. Həmin dövrdə qəsəbənin indiki S.Orucov küçəsində qamış tipli evlərdən ibarət olan ilk yaşayış massivi salınmışdır.

Hazırda Qaradağ rayonunun ərazisi 1080 km2 əhalisi isə 109371 nəfərdir. Xəzər dənizi boyu uzunluğu 106 km-dir. Qaradağ rayonu ərazisindəki dünyanın qədim yaşayış məskənlərindən biri, zamanın daş yaddaşını əsrarəngiz qayaüstü rəsmlərdə yaşadan Qobustandır. Bu tarix 20 min il əvvələ gedib çıxır.

Qaradağ rayonu Azərbaycanın ən iri neft-qaz sənaye müəssisələrinin yerləşdiyi məkanlardandır. Ulu Öndərimiz Heydər Əliyevin neft strategiyasının reallaşmasında Bakının Qaradağ rayonunun da müstəsna rolu var. Hələ ötən əsrin 80-ci illərində, məhz Dahi Öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində Qaradağ rayonunda regionda analoqu olmayan və bu gün Ulu Öndərimizin adını daşıyan Dərin Dəniz Özülləri Zavodunun istismara verilməsi, digər neft sənayesi müəssisələrinin inşası bu gün milli neft strategiyasını uğurla reallaşdırmağa imkan verir. Dövlət başçısı Sahil qəsəbəsində müasir standartlar səviyyəsində inşa olunan "Holcim-Azərbaycan" ASC-nin yeni sement zavodunun, Qaradağ metal konstruksiyalar zavodunun, Ələt qəsəbəsindəki 32 saylı poliklinikanın, Qobustan qəsəbəsində 330 saylı orta məktəbinin, Müşfiqabad qəsəbəsində 67 saylı körpələr evi-uşaq bağçasının, qaçqınlar üçün salınmış yeni yaşayış məhəlləsinin açılışlarında şəxsən iştirak etməklə, Sahil qəsəbəsində aparılan quruculuq-abadlıq işləri ilə yerində tanış olmağı ilə rayon əhalisinə hədsiz sevinc bəxş etmişdir.

### Qaradağ rayonu inkişafının yeni mərhələsinə qədəm qoyur

Dövlətimizin başçısının Qaradağ rayonuna böyük önəm verməsi bu yerlərə doğma münasibəti ilə bağlıdır. Hələ 1990-cı illərin ortalarında Cənab İlham Əliyevin təşəbbüsü və köməyi ilə ilk dəfə, məhz "Qaradağın sosial-iqtisadi inkişafı" Proqramı qəbul edilib və uğurla icra olunub. "Holcim-Azərbaycan" ASC-nin yeni sement zavodunun açılışındakı çıxışında dövlətimizin başçısı həm Qaradağın, həm də bu zavodun ölkəmiz üçün çox böyük əhəmiyyət daşıdığını vurğulayıb və demişdir: "Zavodun Qaradağ rayonunun ərazisində yerləşməsi, əlbəttə ki, təbii səbəblər əsasında mümkün olubdur. Çünki burada, yaxında zavodun məhsul istehsalı üçün lazım olan xammal yataqları vardır. Sovet dövründə bu zavod burada tikilmişdir. Əlbəttə, Qaradağ rayonunun gələcək sənaye inkişafı ilə bağlı bizim konkret fikirlərimiz vardır. Mən dəfələrlə demişəm ki, Azərbaycanın yeni sənaye mərkəzlərindən biri də Qaradağ rayonu olmalıdır. Qaradağ rayonu inkişaf edir. Burada həm güclü sənaye potensialı yaradılır, eyni zamanda, turizm obyektlərinin yaradılması, tikintisi məsələləri də gündəlikdədir".

Prezident İlham Əliyevin 2012-ci il dekabrın 29-da imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdiriləcəkdir. Təsadüfi deyil ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının uğurla reallaşmasında Qaradağ rayonu da mühüm rola malikdir. Qaradağ rayonunda Neft-Qaz və Neft-Kimya Kompleksinin yaradılması qlobal layihədir. 2013-cü ildə başlayan layihə 2020-ci ilin dekabrında neft emalı zavodunun tikintisi ilə sona çatması nəzərdə tutulur. Layihənin icrasına təxminən 14 milyard dollar investisiya qoyulur.

Söz yox ki, əldə olunan bu nailiyyətlər davam etdiriləcək. Çünki əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün xalqın dəstəyi ilə 11 aprel 2018-ci il prezident seçkilərində yenidən Prezident seçilən İlham Əliyevin davam etdirdiyi siyasət bunu tələb edir. Deməli, qaradağlıları və Qaradağ rayonu yeni inkişafa və tərəqqiyə doğru inamla və qətiyyətlə addımlamaqdadır.

***Jalə Bayramlı***

*Yazı Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Söyüş qrupu tərbiyəsizlik və əqli çatışmazlıqlarını nümayiş etdirir

Elmi-texniki tərəqqi, daha dəqiq desək, internet resurslarının mövcudluğu insanlara ünsiyyət formalarını virtuallaşdırmaq imkanı verir və hər kəs sosial şəbəkələrin imkanlarından istifadə etmək, bundan yararlanmaq imkanı qazanır. Bu imkanlardan layiqincə yararlanmaq, düzgün istifadə etmək sosial şəbəkə istifadəçilərinin üzərinə düşür və hər bir istifadəçi öz fərdi keyfiyyətlərini virtual müstəvidə nümayiş etdirir. Yaxud fərdi keyfiyyətlərə malik olmayan kimsələr, əxlaqi dəyərlərə sahib olmayanlar, tam əksinə olaraq, qeyri-etik davranışları ilə özlərini ifşa edirlər.



Sosial şəbəkələrin verdiyi imkanlardan sui-istifadə edən bəzi mühacirlərin əməlləri, artıq bir müddətdir ki, Azərbaycan ictimai rəyində haqlı olaraq qınanılır. İndiyə qədər siyasi arenada olmayan, müxtəlif bəhanələrlə xarici ölkələrə sığınan bəzi şəxslərin söyüşlə fikirlərini ifadə edib, bunu siyasi mübarizə hesab etməsi, əlbəttə ki, ictimaiyyət tərəfindən normal qarşılana da bilməzdi. Bir sıra tanınmış jurnalistlər, ictimai-siyasi xadimlər, ziyalılar, hətta müxalif mövqeli bir sıra şəxslər belə soyüş və təhqirlərlə müşayiət olunan mübarizə metodlarının təqdir edilmədiyini vurğulayan yazılarla çıxış edib, söyüş söyən mühacirlərin əməllərini sərt tənqid ediblər.

Doğrudur, ölkənin simvollarını təhqir edib söyməklə, yalnız özlərinin hansı dərəcədə tərbiyə aldıqlarını nümayiş etdirir və hansı əxlaqa sahib olduqlarını sərgiləyirlər. Yəni bu tərbiyəsizlik ancaq onların özlərinə aiddir və bu, onların simasını və kimliyini təsdiq edir. Amma bu, o demək deyil ki, hər səviyyəsiz və hər tərbiyəsiz ağzına gələni danışa bilər və buna ictimaiyyət reaksiya verməyəcək. Buna reaksiya verməyən, münasibət bildirməyən yalnız radikalların özləri ola bilər və eyni səviyyədə və eyni tərbiyədə olmaları buna əsas verir.

Dağıdıcı müxalifət söyüş söyməyi siyasi mübarizə hesab edən adamlarla niyə ehtiyatlı davranır və niyə onların əməllərini pisləyən bir bəyanatla çıxış etmir, bu, bəlli məsələdir. Çünki hər ikisi eyni taktikadan istifadə edərək, bunu mübarizə hesab edir. Bunu hamı bilir ki, troll dəstəsi yaradıb, insanları təhqir etdirmək kimi tərbiyəsiz bir taktikanın mühacirlərdən əvvəl ilk müəllifi Əli Kərimlinin özüdür. Məhz buna görə də, onun Orduxan, Mirzəli, Sadıqlı kimilərin qeyri-etik davranışlarına, tərbiyəsizliyinə münasibət bildirməyə nə haqqı var, nə də üzü. Bir də əgər AXCP sədrinin özü belə qeyri-etik mübarizə metoduna görə qınaq obyekti olduğu halda, onun münasibəti kimin üçün maraqlı ola bilər? İctimaiyyət bu anormal davranışları, əxlaq normalarından uzaq fəaliyyəti qınadığı zaman mühacir söyüş qrupu ilə yanaşı, Kərimli və eyni zamanda, onun dəstəsi də hədəf hesab olunur və bu baxımdan, onun münasibətinin heç bir anlamı qalmır, bunu ondan heç gözləməyə də dəyməz.

### Mühacirlərin sosial şəbəkələrdə hədsizliyi ənənəvi müxalifətin can verməsindən xəbər verir

Müxalifət düşərgəsi elə bir acınacaqlı vəziyyətə düşüb ki, siyasi proseslərdə heç bir zaman iştirakçı olmayan "mühacir lider"lərin "söyüş siyasəti" bu gün dağıdıcı müxalifətin vizit kartına çevrilib. Ölkə daxilindəki müxalifət fəallarından kosmopolit düşüncə, ekstravaqant davranış tərzinə görə fərqlənən "mühacir lider"lərin sosial şəbəkələrdə hədsizliyi, əslində, ənənəvi müxalifətin can verməsindən xəbər verir. Real həyatda fəaliyyət bacarıqsızlığı ilə yanaşı, virtual müstəvidə də bir nəticə hasil edə bilməməsi ənənəvi müxalifətin ümidlərini xaricdəki söyüş qrupunun fəaliyyətinə bağlamağa məcbur etdi. Bir sözlə, ənənəvi müxalifət gözünü dikib xaricdəki mühacir söyüş pəhləvanlarına və onların fəaliyyətini dəstəkləməklə missiyasını birmiş hesab edir, hətta onlara ümid də bağlayır.

Mühacir söyüş qrupunun maskalanıb küçələrdə oyunbazlıq etməsi, əlbəttə ki, mübarizə metodu hesab edilə bilməz və bu daha çox şouya bənzəyir. Sözsüz ki, Avropa sakinləri də bunun şou olduğunun fərqindədir və heç bir hərəkətlərinə məhəl qoyan yoxdur. Çünki dünya təcrübəsində heç bir yerdə rast gəlinməyən bu təlxəkliyi kimsə ciddi qəbul etmək fikrində ola bilməz.

Orduxanın, Turalın və Mirzəlinin hərəkətlərindən onların ruhi xəstə olduğu qənaətinə gəlmək olur. Əqli çatışmazlıq simptomlarını heç də yalnız xəstəxanalarda müşahidə etmirik. Bəzən müəyyən yaş qruplarında olan yeniyetmələrin həkim müayinəsinə ehtiyacı olduğu bildiriləndə, səbəb onun yaşına uyğun olmayan hərəkətləri hesab olunur. Yəni müəyyən yaş qrupunda olan insanlar öz yaşına uyğun olmayan hərəkətlərinə görə psixi müayinələrə cəlb olunur, müvafiq müalicələr tətbiq olunur. Orduxala Turalın gah şəkil yapışdırıb bundan körpə uşaq kimi sevincək olmaları, gah da suya şəkilləri tökülb onun dalınca baxıb batmasını səbirsizliklə gözləmələri və bundan təlxək kimi zövq almaları əqli cəhətdən anormal olduqlarına dəlalət edir.

**İnam HACIYEV**

TƏRS BAXIŞ

## ADP-nin iddiası "REAL"ı bir-birinə qatıb

*Ortada saxta sənəd iddiası var*



***Bir neçə gün öncə, sosial şəbəkə üzərindən təsis qurultayı keçirib partiyaya çevrildiyini elan edən "REAL" hərəkatının bu addımından sonra dağıdıcı müxalifət düşərgəsində bir sıra çaxnaşmalar yaranıb. Əsas narahatlıqlardan biri isə, onsuz da heç bir fəaliyyət mexanizmləri olmayan siyasi müxalifət partiyalarının yerlərinin daralmasıdır ki, İlqar Məmmədovun sədri olan "REAL" partiyaya çevrildiyini bəyan etdikdən sonra bu amil özünü daha çox qabartmağa başlayıb. İstər AXCP, istər Müsavat, istərsə də digər partiyalar İ.Məmmədovun sədri olduğu qurumun partiyalar sırasına daxil olmasından elə də razı görünmürlər.***

Ortada olan məqamlardan biri də həmin partiyaların "REAL" tərəfindən çıxdaş edilməsi təhlükəsidir. Xarici dipkorpuslarla, yaxud Qərb təşkilatları ilə əlaqələr məsələsində "REAL"ın da, partiya olaraq iştirak etməsi, söz yox ki, müxalifət partiyalarında qısqanclıq hissləri yaratmaqdadır. Əbəs deyil ki, bir müddət əvvəl, aksiyalara qoşulmaq kimi təkliflər alan "REAL" hərəkatı həmin təklifləri rədd etdikdən sonra, məhz radikal cinahın hücumlarına məruz qaldı. Sosial şəbəkələrdə kəskin fikir ziddiyyətləri yaşanmaqla yanaşı, xüsusilə, "Milli Şura"-AXCP cütlüyünün müəyyən qrupları hərəkat təmsilçilərini "hakimiyyətə işləməkdə" və s. ittihamlarda suçladılar.

### İlqar Məmmədov hansı sənədə imza atıb?

Həmin qarşıdurmalar aramlıq tapar-tapmaz, bu dəfə "REAL" digər siyasi təşkilat - Sərdar Cəlaloğlunun sədri olduğu ADP tərəfindən kəskin ittihamlara məruz qalıb. Məsələ ondadır ki, ADP sədri artıq partiyaya çevrilmiş "REAL"ın həbsdə olan sədri İlqar Məmmədovla bağlı sensasion iddia ilə çıxış edib. S.Cəlaloğlu bildirib ki, İ.Məmmədov zamanında Azərbaycan dövlətinin maraqlarına zidd olan xəyanətkar bir sənədə imza atıb. Belə ki, demokratların sədrinin iddiasına görə, İ.Məmmədov Avropa Şurasına üzv olmaq üçün Dağlıq Qarabağla bağlı heç vaxt məsələ qaldırılmayacağını göstərən sənədə imza atıb. Ancaq maraqlısı budur ki, ortaya müəyyən faktlar çıxdığı zaman qarşı tərəflər bir-birlərini, yuxarıda da qeyd edildiyi kimi, hakimiyyətlə iş birliyində günahlandırırlar. Halbuki inkaredici faktlar və dəlillər, ümumiyyətlə göstərilmir.

### Müxalifətin siyasi gündəmdə qalmaq üçün göstərdikləri cəbalar "bəhrəsini verib"

Görünür, bu səbəbdən, ADP sədri S.Cəlaloğlunun sözügedən iddiasının ardınca, "REAL"ın sədr müavini Azər Qasımlı eyni motivdən çıxış edib və qarşı tərəfi "məntiqsiz" adlandırıb, həmçinin, bildirib ki, həmin sənəd əldə ola bilər, ancaq onun saxta olub-omaması da yoxlanılmalıdır.

Beləliklə, müxalifətin siyasi gündəmdə qalmaq üçün göstərdikləri cəbalar "bəhrəsini verib". Daha doğrusu, ADP sədri "REAL" hərəkatını bəlli məsələdə ittiham etməklə, "bir güllə ilə iki dovşan vurmağa" çalışıb. Birincisi gündəmdə qalmaq, ikincisi isə müxalifət partiyaları sırasına daxil olan "REAL" hərəkatnı partiyalar sırasından çıxdaş etmək üçün. Hər halda, ortada olan ittiham da kifayət qədər maraq doğurur...

**Rövşən NURƏDDİNOĞLU**

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 18-də Füzuli rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Mixail Olaru aparıblar.

## Barbara Buş 93 yaşında vəfat edib



ABŞ-ın sabiq prezidenti, ata Corc Buşun həyat yoldaşı Barbara Buş 93 yaşında vəfat edib. AZƏRTACaTASS İnformasiya Agentliyinə istinadla xəbər verir ki, bu barədə Buş ailəsinin rəsmi təmsilçisi Cim Makqrat özünün UTwitterF səhifəsində yazıb. Barbara Buş xroniki obstruktiv ağ ciyər xəstəliyindən əziyyət çəkib.

O, 1989-1993-cü illərdə ABŞ-ın birinci xanımı olub. Altı övladı olub, lakin qızlarından biri üç yaşında leykemiyadan ölüb. Barbara Buşun 17 nəvəsi, habelə nəticələri qalıb.

# Qərbdə seçki hüququ tarixindən

***İngiltərədə 1640-cı ildə bərqərar olan və lord-protektor Oliver Kromvelin başçılıq etdiyi respublika uzun müddət qala bilmir. Kromvelin hərbi diktaturası mahiyyətcə kral hakimiyyətindən az fərqlənirdi. Kromvel doqquz illik hakimiyyəti dövründə üç dəfə parlamenti qovmuş və son olaraq bütün hakimiyyəti öz əlinə almışdı. 1658-ci ildə Kromvel öldükdən sonra hakimiyyət onun oğluna keçib, lakin o, bu cür qarışıq vaxtda dövləti idarə edə bilmir.***

İki ildən sonra parlament edam edilmiş kral I Karlın oğlunu taxt-taca dəvət etmək qərarına gəlir. Xalq kralı sevinclə qarşılayır. Kral zəbt edilmiş torpaqları öz əvvəlki sahiblərinə qaytarmağı əmr edir, vahid anqlikan kilsəsini bərpa və protestant sektalarını qadağan edir. Lakin inqilab ölkəni dəyişmişdi və onu köhnə qaydalarla idarə etmək mümkün deyildi. Parlament kralın onu buraxmasına imkan verməmək məqsədilə kralın xərcləri üçün hər il parlament tərəfindən pul vəsaitinin müəyyən olunması haqqında qərar qəbul edir, kral nazirlərinin fəaliyyətinə nəzarət etmək hüququ müəyyənləşdirir və kralın hər hansı fərman verməməsinə nəzarət edir, belə ki, ölkədə qanunları yalnız parlament qəbul etməli idi. Parlamentdə "torilər" (kralın tərəfdarları) və "viqlər"in (parlamentin üstünlüyünü müdafiə edənlər) partiyaları yaranır. Onların arasında mübarizə 1679-cu ildə kəskinləşir, bu vaxt "viqlər" kraldan tələb etdilər ki, öz kiçik qardaşını katolik olduğuna görə varislik hüququndan məhrum etsin. II Karl bu tələbi yerinə yetirməkdən imtina edir və parlamenti buraxır. Bundan sonra parlament dörd il çağırılmır. Üsyan etmir "viqlər" darmadağın edilir, onların liderləri edam olunur, yaxud mühacirət etməli olur.

1685-ci ildə II Karl ölür və onun oğlu II Yakov taxta çıxır. O, katolikliyə böyük rəğbət bəsləyirdi və Fransa kralı XIV Lüdovikin təsiri altında idi. II Yakov parlamentlə hesablaşmadan ölkəni idarə edirdi. Bu, üsyana səbəb olur, lakin üsyan kral tərəfindən amansızlıqla yatırılır, 200-dən çox adam edam olunur. Bu qələbədən məst olmuş kral parlament və əhalinin əhval-ruhiyyəsi ilə hesablaşmamaqda davam edir və "Dini dözümlülük haqqında" bəyannamə verir. Bu bəyannamə əhali tərəfindən İngiltərədə ən çox nifrət edilən katolikliyin bərpa olunması istiqamətində ilk addım kimi qəbul olunur. "Torilər" və "viqlər" birləşir və II Yakovu qovaraq onun qızı Mariyanı əri, holland mənşəli Oranlı Vilhelmlə birlikdə taxt-taca dəvət etmək qərarına gəlirlər. 1688-cı ildə Vilhelm İngiltərə sahillərinə çıxır, II Yakov isə öz vətənini tərk etməli olur. Parlament III Vilhelmi taxta çıxarır və 1689-cu ildə Magna Carta ruhunda tərtib edilmiş "Hüquqlar haqqında Qanun"u (Bill of Rights) ona təqdim edir. Bu sənəd parlamentin kral hakimiyyəti üzərində üstünlüyünü təsdiqləyir, beləliklə də, ölkədə konstitusiyalı monarxiyanı bərqərar edir. Bundan sonra parlament qanunlar verməklə ölkəni idarə edir, kral isə "padşahlıq" edir, lakin idarə etmir. Bu hadisələr "Şanlı inqilab" adını alır və parlamentlə mütləqiyyət arasında təxminən yüzillik müharibəyə son qoyur. 1707-ci ildə, kraliça Annanın hakimiyyəti dövründə Şotlandiya,



*1685-ci ildə II Karl ölür və onun oğlu II Yakov taxta çıxır. O, katolikliyə böyük rəğbət bəsləyirdi və Fransa kralı XIV Lüdovikin təsiri altında idi. II Yakov parlamentlə hesablaşmadan ölkəni idarə edirdi. Bu, üsyana səbəb olur, lakin üsyan kral tərəfindən amansızlıqla yatırılır, 200-dən çox adam edam olunur*

İngiltərə və Uels birləşir və vahid parlament formalaşır, bundan sonra krallıq Böyük Britaniya adlanır.

"Şanlı inqilab"dan sonra da parlament ölkənin bütün əhalisini təmsil etmirdi. Böyük Britaniyanı (təminatlı insan haqları baxımından) hələ nə demokratik, nə də azad ölkə adlandırmaq olardı.

Əhalinin yoxsul təbəqələri, eləcə də, bəzi etnik azlıqlar və qadınlar səsvermə hüququndan və digər mühüm hüquqlardan məhrum idi. Maraqlıdır ki, məşhur iqtisadçı Adam Smit (1723-1790) Edinburq Universitetinin professoru olsa da, səsvermə hüququna malik deyildi. 1876-cı ildə həyata keçirilmiş böyük seçki islahatı nəticəsində səsvermə hüququ olan şəxslərin sayı iki milyon nəfərədək artır. Böyük Britaniyada (ABŞ-da olduğu kimi) ümumi seçki hüququ uzun mübarizədən sonra yalnız bizim yüzilliyin 20-ci illərində tətbiq olunur. Böyük Britaniya qadınları seçki hüququna sonuncu olaraq nail olurlar (məhz nail olurlar, yuxarıdan almırlar).

Təqribən səkkiz əsr ərzində zadəganlar, varlı tacir və sənayeçilər, muzdlu fəhlə və qulluqçular, etnik və dini azlıqlar, qadınlar addım-addım öz hüquq və azadlıqlarını genişləndirirdilər. Belə bir cəmiyyətdə hər hansı bir qrupun və ya ayrıca fərdin tarixinə və həyat tərzinə çevrilmiş haqlarını məhdudlaşdırmağa cəhd göstərmək belə mümkün deyil.

Bizim üçün konstitusiyamıza yazılmış hüquqlar uğrunda mübarizə yenicə başlayır və bu mübarizə nə asan, nə də qısamüddətli olacaq və qoy şəxsi və siyasi azadlıqlar uğrunda Britaniya mübarizlərinin inadkarlığı bizim üçün ilhamverici örnək olsun.

Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur.

Bununla, yuxarıda adı çəkilən dini və dünyəvi lordlar, eləcə də, üçüncü zümrə nümayəndələri onların mövqeyini təsdiq edən məktublara və seçkilərin onlara verdiyi hüquqa uyğun olaraq burada millətin tam və azad nümayəndəliyində toplaşıb yuxarıda göstərilən məqsədlərə çatmaq üçün xeyirxah niyyətləri tam ciddiliklə nəzərə alaraq, ilk növbədə, onların qədim hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədilə belə hərəkət edərək, bəyan edirlər:

**1.** Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların həyata keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur.

**4.** Parlamentin icazəsi olmadan müstəsna hüquq iddiası ilə taxt-tacın ehtiyacları və xərcləri üçün pul toplamaq qanunsuzdur.

**5.** Subyektin krala petisiya (müraciət) vermək hüququ var və buna qarşı olan bütün manеələr qanunsuzdur.

**6.** Sülh şəraitində parlamentdən icazəsiz krallıqda nizami ordu saxlamaq və onu gücləndirmək qanunsuzdur.

**8.** Parlament üzvlərinin seçkisi azad olmalıdır.

**9.** Parlamentdə nitq və fikir söyləmək azadlığı məhkəmədə və ya parlamentdən kənar hər hansı bir yerdə təqib oluna və töhmətləndirilə bilməz.

**11.** Andlılar lazımi qaydada tərtib olunub seçilməlidir və böyük xəyanət haqqında məsələyə baxılarsa, onlar əmlak yiyələri olmalıdırlar.

**12.** Məhkəmənin hökmü yoxdursa, cərimələr qanunsuzdur.

**13.** Parlament bütün şikayətləri təmin etmək, qanunları qorumaq, möhkəmləndirmək və onlara dəyişikliklər etmək üçün tez-tez toplanmalıdır.

Və onlar təntənəli surətdə bildirir, tələb və təkid edirlər ki, yuxarıda sadalananlar hamıya və hər kəsə onların alınmaz hüquq və azadlıqları kimi şamil edilir; bu müddəalardan hər hansı birində insanlara ziyan gətirən çıxışlar, məhkəmə qərarları, hərəkət və əməllər nəticə kimi göstərilə və ya nümunə hesab oluna bilməz.

Ulu Öndər Heydər Əliyevin və Onun komandasının böyük səyləri nəticəsində, bu gün Azərbaycanda ümumi siyasi, iqtisadi və sosial inkişafı təmin edən sabitlik yaranıb. Buna görə gələcək inkişafı yalnız və yalnız siyasi kursun varisliyi təmin edə bilər. Siyasi kursun varisliyi isə bu gün düzgün anlanmalı və başa düşülməlidir. Çünki kurs varisliyi hakimiyyət varisliyi kimi yox, aparılan siyasi və iqtisadi islahatlara varislik kimi qiymətləndirilməlidir. Bu, həm milli birliyin, vətəndaş konsensusunun yaradılmasına, həm də ölkənin inkişafına xidmət edən amildir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 19 aprel

## İmtahandan əvvəl fikir qarışıqlığı olduğu halda nə etməli?



İmtahandan əvvəl qayğı və ya həyəcanın olması normal haldır. Bu, abituriyentin imtahana daha məsuliyyətli hazırlaşmasına kömək edir. Lakin həddindən artıq qayğı imtahan zamanı bir sıra narahatçılığa səbəb ola bilər ki, bu da qorxu yaradır. Belə olduqda avtomatik düşüncə pozuntuları meydana çıxır.

Bunu AZƏRTAC-a məxsusi müsahibəsində həkim-psixiatr Bəxtiyar Mustafayev deyib. Həkim bildirib: "Mən bacarıqsızam", "Yaxşı nəticə göstərə bilməyəcəm", "Pis nəticə göstərsəm hər kəs məndən üz döndərəcək", "Valideynlərimin üzünə necə baxacam?", "İmtahandan kəsilsəm mənim gələcəyim olmayacaq", "Mənim həyatım bu imtahandan asılıdır" kimi bir sıra bənzər fikirlər abituriyentlərdə imtahan həyəcanına və bunun əsasında qorxuya səbəb olur. Bunun nəticəsində imtahan zamanı abituriyentlərdə əllərdə titrəmələr, tərləmə, taxikardiya, özünə nəzarəti itirmə, diqqəti toplaya bilməmə, döş qəfəsində və ya digər sıxılmalar, baş gicəllənməsi, qusma kimi əlamətlər müşahidə olunur. Bu da abituriyentin imtahan nəticələrinə mənfi təsir göstərir. İmtahan həyəcanının yaranmasında valideynlərin də müəyyən rolu olur. Daha çox təzyiq altında yetişdirilən, həmyaşıdları ilə müqayisə olunan, "Bizim gələcəyimiz səndən asılıdır", "Sən imtahandan kəsilsən biz qohumların, tanışların üzünə necə baxarıq", "Sən mütləq yüksək bal toplamalısan", "Mütləq bu universitetə qəbul olmalısan" kimi ifadələrlə təzyiq altında saxlanılan abituriyentlərdə imtahan həyəcanı daha yüksək olur.

Ümumiyyətlə abituriyentlər imtahandan əvvəl normal yatmalı, istirahət etməlidirlər. Bu, imtahan zamanı daha diqqətli olmağa kömək edir. Həddindən artıq həyəcan olduqda isə tənəffüs hərəkətləri etməklə bunu tənzimləmək mümkündür. Bunun üçün nəfəsi yavaş-yavaş burundan alınıb, azca saxlanılıb və sakit şəkildə ağızdan verilməlidir. Qeyd etdiyim kimi imtahandan əvvəl fikir qarışıqlığı olduqda onları alternativ düşüncələrlə əvəz etmək olar. Misal üçün "Mən imtahandan kəsiləcəm" əvəzinə , "Mən əvvəlki imtahanlarda yaxşı nəticə göstərmişəm və bu imtahana yaxşı hazırlaşmışam" kimi fikirlərlə həyəcanı azaltmaq mümkündür. Lakin imtahanlarında həddindən artıq həyəcan səbəbilə yaxşı nəticə göstərə bilməyənlərin psixoterapevtə və ya psixiatra müraciət etmələri məsləhət görülür".



## Psixi xəstəliklərdən qoruyan məhsullar

Yeni Zelandiyada Otaqo Universitetinin mütəxəssisləri meyvə və tərəvəzlərin psixi sağlamlıq üçün ən faydalı məhsullar olduğunu söyləyiblər. Rusiya KİV-ləri xəbər verir ki, bu sahədə araşdırma aparan Tamlin Konnerin verdiyi məlumata görə, təzə meyvə və tərəvəzlərin istifadəsi termiki emala və ya konservasiyaya məruz qalanlarla müqayisədə psixi sağlamlığın yaxşılaşmasına daha faydalı təsir göstərir. Bunun qida maddələrinin emalının onun tərkibində olan vitaminləri parçalanması ilə əlaqədar olduğu güman edilir.

Konnerin dediyinə görə, tədqiqatçılar Yeni Zelandiya və Birləşdirilmiş Ştatlardan yaşı 18-dən yuxarı 400 könüllü üzərində təcrübə aparıblar. Alimlər təzə və emal edilmiş meyvə və tərəvəzlərin istifadə edilməsini, təcrübədə iştirak edənlərin həyat tərzi, psixi sağlamlığı vəziyyəti, yuxu rejimini və digər amilləri nəzərə alaraq dəyərləndiriblər. Mütəxəssislər psixika üçün ən faydalı on məhsul müəyyənləşdiriblər. Həmin məhsullar sırasına kök, xiyar, alma, banan, ispanaq, kivi, həmçinin sitrus meyvələri və təzə giləmeyvələr daxil edilib.

## "Mançester Siti"-"Barselona" oyununu azərbaycanlı hakim idarə edəcək



Azərbaycanlı FIFA referisi UEFA tərəfindən yeni təyinat alıb. Belə ki, həmyerlimiz Əliyar Ağayev UEFA Gənclər Liqasının yarımfinal mərhələsi çərçivəsində keçiriləcək "Mançester Siti" (İngiltərə) - "Barselona" (İspaniya) oyununu idarə edəcək. Onun köməkçiləri Zeynal Zeynalov və Akif Əmirli olacaq. Dördüncü hakim funksiyasını Sandro Şarer (İsveçrə) yerinə yetirəcək. Qeyd edək ki, "Mançester Siti"-"Barselona" oyunu aprelin 20-də Nyon şəhərindəki Kolovra stadionunda keçiriləcək.

## FIDE prezidenti Şəmkirə gəlir



Aprelin 18-də məşhur şahmatçı Vüqar Həşimovun xatirəsinə həsr olunan "ShamkirChess-2018" superturnirinin açılış mərasimi keçiriləcək. AZƏRTAC xəbər verir ki, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov tədbirdə iştirak etmək üçün Şəmkirə gələcək. Qeyd edək ki, superturnirin təntənəli açılış mərasimi Şəmkirdəki Heydər Əliyev Mərkəzində olacaq. Tədbir saat 18:30-da başlayacaq.

## "Roma" 19 yaşlı futbolçu ilə müqavilə müddətini uzadıb




İtaliyanın "Roma" klubu futbolçusu Luka Pelleqrini ilə müqavilənin müddətini uzadıb. Klubun saytında yer alan məlumata görə, 19 yaşlı müdafiəçi ilə sözləşmənin müddəti 2022-ci ilin iyununa qədərdir. "Roma"nın 19 yaşadək futbolçulardan ibarət komandasında çıxış edən oyunçu bu mövsümdən əsas komandaya qoşulub. Lakin o, hələ ki, debüt etməyib.

## Paralimpiyaçı cüdoçularımız Antalyada dünya kuboku yarışlarında iştirak edəcəklər

Aprelin 19-dan 25-dək Antalyada paralimpiyaçı cüdoçular arasında IBSA dünya kuboku yarışları keçiriləcək. AZƏRTAC xəbər verir ki, Azərbaycan Cüdo Federasiyası və "Neftçi" idman klubunun dəstəyi ilə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin cüdo üzrə millisi yarışda iştirak edəcək. Millimiz aprelin 18-də dünya kuboku yarışlarında iştirak etmək üçün Antalyaya yola düşüb.

## "Beşiktaş" "Şaxtyor"un futbolçusunu transfer edəcək



"Beşiktaş"ın yay fasiləsində heyətinə qatacağı ilk futbolçu məlum olub. Qol.az-ın "Fanatik"ə istinadən yaydığı xəbərə görə, İstanbul klubu "Şaxtyor"un yarımmüdafiəçisi Bernardla razılıq əldə edib. Braziliyalı yarımmüdafiəçi ilə 4 illik müqavilə imzalanacağı bildirilir. Qeyd edək ki, 25 yaşlı futbolçu bu mövsüm Donetsk klubunun heyətində ümumilikdə 29 oyun keçirib və 10 qol vurub.

## "Hazırda "Real"a qalib gələ biləcək yeganə komanda "Bavariya"dır"



"Bavariya"nın idarə heyətinin sədria Karl-Haynts Rummenigge açıqlama verib. Qol.az-ın Almaniya mətbuatına istinadən yaydığı xəbərə görə, o, Çempionlar Liqasının yarımfinal mərhələsindəki rəqibləri "Real"ı məğlub edə biləcək komanda olduqlarını deyib: "Əgər hazırda "Real"ı qalib gələ biləcək bir komanda varsa, bu "Bavariya"dır. Biz uğurlu oyunlar seriyamızı davam etdirməliyik. "Bayer"lə matçdan razı qaldım. Bütün futbolçular yüksək səviyyəli oyun sərgilədilər".

## Elan

**Əmlak məsələləri dövlət komitəsi yanında Daşınmaz Əmlakın Dövlət xidməti tərəfindən Əliyeva Ofelya Həsən qızına verilmiş çıxarış (№0336901) itdiyi üçün etibarsız sayılır.**

* * *

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Qasımova Nərgiz Fuad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**